**Orucoğlu Z.** Ölümsüzlüyə qovuşan ömür // 525-ci qəzet. - 2025. - 28 yanvar. - **№ 15**. - S. 11.

**44 günlük haqq savaşımızda minlərlə qeyrətli oğlumuz vətənin bütövlüyü uğrunda canını fəda etdilər. Vətən uğrunda son damla qanına qədər vuruşan belə oğullardan biri də Cəlilabad rayonu, Musalı kəndində boya-başa çatan gizir Elşən Əfqan oğlu Niftullayevdir. O, 21 yaşında şəhidlik zirvəsinə ucalaraq gələcək nəsillərə örnək oldu. Vətənə olan sevgisi və göstərdiyi qəhrəmanlıqla milyonlarla insanın yaddaşından silinməz iz qoydu.**

Fədakarlıq, mərdlik uşaq yaşlarından taleyinə yazılan, Elşən Niftullayev orta məktəbi qurtarıb müstəqil həyata qədəm qoyanda gözəl mənəvi keyfiyyətləri ona dərin ehtiram gətirir. Öz xoşbəxtliyini xalqına, Vətəninə xidmətdə görən Elşəni torpaqlarımızın düşmən tapdağı altında olması daim narahat edirdi. Düşməndən qisas almaq üçün ordu sıralarına xidmətə gedir. Vətənin keşiyində duran Elşən nizam-intizamı ilə seçilir, komandirlərin verdiyi bütün tapşırıqları vaxtında və dəqiq yerinə yetirir. Yağı düşməndən qisas alacağı günə mükəmməl hazırlaşır.

İkinci Qarabağ müharibəsi başlayan kimi Elşən Niftullayev 30 il əsarətdə olan Vətən torpaqların azadlığı naminə silaha sarılıb bir başa səngərə məkrli düşmənlə vuruşa girir. Onun yüksək döyüş məharəti, qəhrəmanlığı düşmənin həm canlı qüvvəsinə, həm də texnikasına böyük zərbə vurur. Yaralanmasına baxmayaraq, silahını yerə qoymur, əzmlə vuruşmağa davam edir. Suqovuşanın azadlığı uğrunda gedən ağır mübarizədə düşmənə qan udduran Elşən oktyabrın 10-da Ağdərə istiqamətində gedən döyüşlərdə son damla qanına qədər vuruşub şəhidlik zirvəsinə ucalır...

Elşən Niftullayev bu işıqlı dünyada az yaşadı, amma Vətən qarşısında borcunu layiqincə yerinə yetirdi. Azərbaycanın şanlı tarixində iz qoydu. Dövlət tərəfindən isə göstərdiyi qəhrəmanlığa görə "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.